

# Milli mətbuatımızın Nəsir İmanquliyev zirvəsi

**Hansı əsrdə, ictimai-siyasi quruluşda yaşamasından asılı olmayaraq, hər kəs öz dövrünün insanıdır. Zamanın və quruluşun çərçivəsində yaşayıb–yaratmaq, xalqına, məsləkinə xidmət etmək isə hər kəsə nəsib olmur. Yalnız öz ideyasından, ruhundan çıxış edən, zamanı həqiqətə kökləyən az sayda insan olur ki, ağlı, iradəsi, fəhmi ilə quruluşun siyasi mənzərəsi dəyişir.**

Adı mətbuat tariximizə əbədi həkk olunan, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə kimi jurnalistika məktəbi yaradan görkəmli jurnalist, ictimai xadim, pedaqoq, "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və 30 ilədək baş redaktoru olmuş professor Nəsir İmanquliyev belə şəxsiyyətlərdəndir.

Onun "Gənc işçi", "Yeni yol", "Kommunist", "Döyüşən Krım", "Radio proqramı", "Bakı"– "Baku", "Vətənin səsi" qəzetlərini, Bakı Dövlət Universiteti, Bakı Şəhər Soveti, Azərbaycan KPMK, Radioinformasiya Baş İdarəsi, Radio və Televiziya Komitəsini əhatə edən çoxşaxəli fəaliyyəti siyasi rejimlərdən asılı olmayaraq milli-mənəvi dəyərlərimizin qorunmasına, inkişafına, yaddaşa qayıdış ideologiyasının formalaşmasına təkan verib.

Qılıncın qələmlə əvəz olunduğu XX yüzildə dünyaya gələn, ömrünün yarıdan çoxunu "Qələm və Kəlam" müqəddəsliyinə bağışlayan professor Nəsir İmanquliyev yazı yazmadı, özünü, ruhunu sözə köçürdü. Haqdan, ədalətdən, ağlının, istedadının hökmündən əməlləri, sevgiləri ilə yaddaşlara yazıldı.

***

İkinci cahan savaşı – 1941-45-ci illər müharibəsi başlananda Nəsir müəllim texnikumu bitirmişdi. "Yeni yol", "Gənc işçi" qəzetlərində qazandığı təcrübə ədəbiyyatın sirlərinə bələd olan, ədəbi yazılarda püxtələşən, imzasını təsdiq edən istedadlı cavanı o dövrlərdə çoxlarına nəsib olmayan bir səadətə qovuşdurmuşdu. O, Azərbaycanın baş mətbu orqanında – "Kommunist" qəzetində məsul katib vəzifəsində işləyirdi.

1942-ci ilin yanvarında, qışın oğlan çağında tale onu öncə Qafqaz cəbhəsinə – Mozdoka, sonra Ukrayna–Krım cəbhəsinə gətirdi. Hər gün rəşadətli döyüş yolunun, yeni qəhrəmanlıq dastanının yeni səhifələrini yazacaqdı…

Öncə mütərcimlik edən əsgər Nəsir İmanquliyev çox keçmir ki, cəbhə yoldaşlarının hərbi-vətənpərvərlik ruhunu formalaşdırmaq üçün hərbi hissə komandirinin siyasi işlər üzrə müavini təyin olunur. Təbliğat-təşviqat işləri ilə məşğul olduğu ilk günlərdən qələmindən ayrılmayan Nəsir müəllimi qarşıda daha məsuliyyətli işlər gözləyirdi.

Hərbi hissənin rəhbəri Baş Qərargahın tapşırığı ilə onu "Döyüşən Krım" qəzetinə məsul katib və köşə yazarı təyin edir, Krım cəbhəsinin taleyinin mənəvi tərəfini Nəsir İmanquliyevə etibar etməklə, ona böyük etibar göstərir. "Döyüşən Krım" qəzetinin səhifələrində dərc etdirdiyi publisistik yazıları, Bakıya "Kommunist" qəzetinə göndərdiyi barıt qoxulu məqalələri ilə ön cəbhədən arxa cəbhəyə körpü salan Nəsir müəllimin müharibənin odu içində yazdığı yazıların hər birində milli vətənpərvərlik, azərbaycançılıq ruhu var idi. Azərbaycanlılardan təşkil olunan məşhur 416-cı diviziyanın əsgərlərinin həyatından, döyüş yolundan bəhs edən, maraqlı, oxunaqlı oçerkləri, reportajları, müsahibələri ilə əsl azərbaycanlı obrazını yaradan Nəsir İmanquliyevin o zaman cəmi 31 yaşı olsa da, tale onu çox sınaqlara çəkmişdi. Qələmini süngüyə çevirən bu qəhrəman, vətənpərvər jurnalist bir ömürdə yüzlərlə döyüşçünün ömrünü yaşamışdı.

Dövlətçilik, təbliğat-təşviqat və quruculuq işləri üçün daha əhəmiyyətli olan əsgəri – Nəsir İmanquliyevi arxa cəbhəyə göndərmək məqsədi ilə qərar çıxarılır.

***

Ordudan tərxis olunduqdan sonra yenidən keçmiş iş yerinə – "Kommunist" qəzetinin redaksiyasına qayıdan Nəsir müəllim artıq məsul katib deyil, redaktor müavini vəzifəsində fəaliyyətini davam etdirir. Yenə də "müsəlləh əsgər" kimi döyüşən, süngüsünü qələmə çevirən bu vətənpərvər insan Vətən, xalq naminə ona tapşırılan məsuliyyətli işin öhdəsindən ləyaqətlə gəlir. Qəzetdə "Cəbhə məktubları", "Cəbhədən şeirlər" rubrikalarını yaradır. Səngərdən gələn barıt qoxulu məktubların, şeirlərin dili ilə arxa cəbhədən ön cəbhəyə körpü salır. Bu məktubları oxuyan hər bir oxucu ilə yanaşı, əsgər ailələri də sevinc hissi yaşayır.

Dövrünün tanınmış qələm sahibləri ilə birlikdə sözün səngərində ləyaqətlə, cəsarətlə, eyni zamanda müdriklik və peşəkarlıqla dayanan Nəsir müəllimin müharibə dövrü fəaliyyəti, təşkilatçılıq və jurnalistlik məharəti bununla məhdudlaşmır. O, bir istedadlı insan, ədəbiyyata bağlı ziyalı, mütərcim, eyni zamanda redaktor kimi gəncləri, dövrünün istedadlı insanlarını himayə etmək, ədəbiyyatın qayğısına qalmaq, repressiyanın, müharibənin məngənəsində sıxılan sözü xilas etmək naminə "Kommunist" qəzetinin nəzdində "Ədəbiyyat dərnəyi" yaradır.

Nəsir İmanquliyevin "Kommunist" qəzetindəki fəaliyyəti, dövlət, xalq üçün gördüyü böyük işlər Azərbaycan KP MK-nın diqqətindən yayınmır. 1946-cı ildə Mərkəzi Komitənin birinci katibi Mircəfər Bağırovun sərəncamı ilə Moskvaya Mərkəzi qəzet kursuna göndərilən Nəsir müəllim, 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) filologiya fakültəsinin yenicə təməli qoyulan jurnalistika bölümünə müəllim təyin olunur. 1948-ci ildə isə respublika rəhbərinin sərəncamı ilə Moskva Ali Partiya Məktəbinə göndərilir. Peşəkar mətbuat işçisi, sədaqətli kadr, təmiz ziyalı, yüksək əxlaq və ləyaqət nümunəsi Nəsir İmanquliyev 1952-ci ilin iyulunda Azərbaycan KP MK-nın Təbliğat-təşviqat şöbəsi müdirinin müavini, sonra isə müdiri təyin olunur. 1956-cı ilə qədər mətbuatın kuratoru vəzifəsini vicdanla icra edən bu böyük şəxsiyyətin xidmətləri sayəsində onlarca mətbuat işçisi zamanın, quruluşun sərt sınaqlarından, bürokrat, "mənəm-mənəm" deyən katiblərin, partiya işçilərinin ağ ləkələrindən, qara damğalarından xilas olunur. İnsanlara peşəkarlığına, istedadına görə meydan verilir, qabağa çəkilir.

İmam Mustafayev hakimiyyətə təzə gəldiyi ərəfədə qəzetlərin əksəriyyətində,



hətta Moskvada işıq üzü görən mətbuat orqanlarının bir çoxunda erməni daşnaklarının fitvası ilə "Bakıda radionu nə vaxt açırsan "Rasta" rast gəlirsən, erməni mədəniyyəti, erməni tarixi sıxışdırılır" kimi bəd ruhlu, həqiqətdən uzaq məqalələr dərc olunur, Mərkəzi Komitə də yerli rəhbərliyi qınaq hədəfinə çevirirdi. Milli-mənəvi dəyərlərə sədaqət hissi ilə yanaşan İmam Mustafayev belə vəziyyətdə daha uğurlu bir siyasi gediş edir. Peşəkarlığına, ötkəmliyinə, eyni zamanda müdrikliyinə ehtiram bəslədiyi Nəsir müəllimi 1956-cı il noyabrın 23-də Mədəniyyət Nazirliyinin Radioinformasiya Baş İdarəsinin rəisi təyin edir. Təyinat zamanı aralarında olan qısa söhbəti xatırlayan İmam Mustafayev 1989-cu ilin dekabrında Azərbaycan radiosuna verdiyi müsahibədə deyirdi: "Mən Nəsir müəllimi qəbul edən zaman, qəzetlər yazır ki, "Radionu nə vaxt açırsan "Rasta" rast gəlirsən", istəyirəm gedib "onların" cavablarını verəsən. İnanıram ki, verəcəksən. Öz metodunla" – dedim. Nəsir müəllim özünəxas təbəssümlə cavab verdi. Səsi sonra bərk çıxdı. "Oxu tar, səni kim unudar" muğam müsabiqəsi ilə hədyan yazanların boğazında kal armud oldu. Onları peşman etdi. Nəsir müəllim müdrik adam idi. Belə bir kadrı vaxtında qiymətləndirdiyim üçün indi də, bu ağsaqqal çağımda da qürur duyuram!"

1956-cı ilin noyabrından 1957-ci ilin sentyabrınadək radioda biri-birindən möhtəşəm layihələrə imza atan Nəsir İmanquliyev 1957-ci il sentyabrın 14-də yeni yaranan Radio və Televiziya Komitəsinə sədr müavini təyin olunur. Televiziyaya rəhbərlik tanınmış şair-publisist Teymur Elçinə, radioya rəhbərlik isə Nəsir İmanquliyevə tapşırılır.

Nəsir müəllim efir adamı olmamışdan, ruhunu səsə, nəfəsə köçürməmişdən öncə qəzetçi idi. Əslində, el dili ilə desək, o, təpədən dırnağadək qəzetçi idi.

1958-ci il yanvarın 10-da işıq üzü görən, 35 min tirajla nəşrə başlayan "Bakı" milli-mətbuat tariximizə özünün səsi, nəfəsi, dəst-xətti ilə yazıldı. Oxucu auditoriyası ilə o dövrün məşhur qəzetlərinin səviyyəsinə çatdı. Dili, üslubu, yazı manerası, hadisələrə münasibəti, ictimai-siyasi və mədəni mühitdə baş verən olayları çevik, operativ şəkildə əks etdirməsi "Bakı"nı təkcə bakılıların deyil, bütün respublikanın sevimlisinə çevirdi. Bu qəzetin səhifələrində ilk dəfə idman şərhləri, beynəlxalq aləmdə baş verən hadisələrə münasibət, rəsmi və qeyri-rəsmi tədbirlərdən birbaşa reportajlar yer aldı. Ana dilinin bütün incəlikləri ilə işıq üzü görən, orfoqrafiya və orfoepiya qaydalarına əməl edən, sözü müxtəlif çalarlarda oxucuya təqdim edən, ona baş yazarının üslubunu gətirən "Bakı" qəzeti ədəbi səhifələri ilə tez bir zamanda şöhrətlənməyə başladı. Respublikamızda və dünyada baş verən hadisələrə ayna tutan "Bakı" dövrünün məşhur qələm sahiblərinin, gənc istedadların, ədəbiyyatda, poeziyada, incəsənətdə, mədəniyyətdə, elmdə öz sözünü deməyə cəhd edən insanların tribunasına çevrildi. Beş il sonra qəzetin rus dilində əlavəsi– "Baku" da işıq üzü gördü.

Sovet mətbuatının bütün çalarlarını, qayda-qanunlarını özündə yaşadan bu qəzetlərdən fərqli olaraq, "Bakı" qəzeti özünün dəst-xətti, hadisələrə münasibəti, sənəti, mədəniyyəti himayə etmək məharəti ilə milli-mətbuatımızın zülmətləri yaran Günəşinə çevrildi.

***

70-ci illəri milli-mənəvi dəyərlərin qorunması, yaddaşa qayıdış, milli özünüdərk ideologiyasının formalaşması kimi qəbul edənlər, bu uzaqgörən siyasətin önündə ümummilli lider Heydər Əliyevi görür. Bu illər ərzində respublikamızda həyata keçirilən möhtəşəm quruculuq işləri iqtisadi, sosial, siyasi, elmi-mədəni dirçəlişə təkan verdi. İri-iri şəhərlər, yaşayış massivləri, elm-təhsil kompleksləri, zavod-fabriklər, sosial-səhiyyə ocaqları, idman qurğuları tikilib istifadəyə verildi. Ən ucqar dağ kəndlərinə belə maarif işığı gətirildi.

Yeraltı keçidlər, metro stansiyaları tikildi. Vətənin o başını bu başına qovuşduran yollar çəkildi. İqtisadiyyatda əldə olunan uğurlar "ağ qızıl"ın, "qara qızıl"ın Vətənini sərvətlər ölkəsinə çevirdi.

Nəsir İmanquliyevin redaktor kimi novatorluğu "Bakı" və "Baku"nu zamanın sərt sınaqlarından, quruluşun çərçivəsindən çıxarıb milli mətbuatın, ictimai-siyasi düşüncənin, ədəbi-mədəni mühitin nəfəsliyinə çevirə bilmişdi. Bu səbəbdən də "Bakı" özünün ab-havası, yazı manerası, dil-üslub xüsusiyyətləri, hadisələrə çevik münasibəti ilə digər mətbu orqanlardan seçilir, milli mətbuatın Günəşinə çevrilir, zülmətləri nura qərq edirdi. Mərkəzi Komitənin qərarlarından, beşilliyin planlarından yazan sovet mətbuatından çox müstəqil qəzeti xatırladan "Bakı"nın 70-ci illərdə söz-mətbuat, fikir və düşüncə azadlığının nümunəsinə çevrilməsinin başlıca səbəblərindən biri də bu idi.

Elə olmasaydı, iki dildə, həftədə 12 sayı işıq üzü görən, sənətin, mədəniyyətin himayədarına, şəhərin ictimai-siyasi, sosial-mədəni mühitinin aynasına, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin yaradıcılıq laboratoriyasına çevrilən "Bakı" qəzeti klassika ilə müasirliyin, ənənə ilə novatorluğun sintezində "Əkinçi"dən, "Molla Nəsrəddin"dən, "Füyuzat"-dan sovet mətbuatına bitib-tükənməyən yol gələn milli mətbuat nümunəsinə çevrilə bilməzdi...

Tanrının ona bəxş etdiyi ömür payını müxtəlif vəzifələrdə əritsə də, professor Nəsir İmanquliyev ömrü boyu mətbuatla, jurnalistika ilə bağlı olub. Bakı Şəhər Sovetində, Azərbaycan KP MK-da Təbliğat-təşviqat şöbələrinə başçılıq edəndə də, Radioinformasiya Baş İdarəsinin rəisi, Radio və Televiziya Komitəsində sədr müavini olanda da o, publisistikadan, jurnalistikadan ayrılmayıb. Ruhunu, duyğusunu sözə köçürüb. Haqqa arxalanıb, həqiqəti yazıb. Qurduqları, yaratdıqları, təməlini qoyduqları ilə Həsən bəy Zərdabi, Ömər Faiq Nemanzadə, Mirzə Cəlil ənənələrini yaşadıb, Müəllimlik edib. Müəllimdən müqəddəs ad, jurnalistikadan müqəddəs peşə tanımayıb. Elmi əsərləri, monoqrafiyaları, dərslikləri ilə peşəsinə sədaqət hissini sübut edib. Bir vaxtlar böyük Həsən bəy Zərdabinin müdrikcəsinə söylədiyi: "Elm gərək sel kimi axsın ki, hər kəs onu içə bilsin" kəlamını gerçəyə çevirib. Müəllimliyi, alimliyi ilə öyünüb. Millətinin çırağına, işığına dönüb. Qəlbinin, könlünün nurunu insanların, insanlığın üstünə səpib.

Deməli, professor Nəsir İmanquliyev sıradan bir jurnalist, redaktor deyildi. Vətəndaş idi. Vətən daşı idi. Ona inanmaq, onunla işləmək, onunla hesablaşmaq gərək idi. Çünki o, zamanın sərt sınaqlarından, fırtınalarından ləyaqətlə keçən, məsləki ilə çoxlarına örnək olan müdrik şəxsiyyət, nəcib, xeyirxah insan, qüdrətli ziyalı, əsl xalq müəllimi, el atası, insanlıq mücəssəməsi, peşəkarlıq nümunəsi, Yaradanın seçilən bəndəsi idi! Və bu bəndənin Tanrı evindən başqa iki qibləsi var idi: Halallığı, saflığı ilə qürur duyduğu ailəsi, bir də "Bakı" qəzetinin redaksiyası. Birincidə iki cüt göyərçini – Gövhəri, Aidası, Nərgizi, Mehribanı ömrünü, gününü zinətləndirir, yurdunu-yuvasını nura qərq edir, ikincidə 63 mənəvi varisi başına pərvanə tək dolanırdı…

O, 63 əsgəri ilə mənəviyyat səngərinə yollanan, hər anın, hər günün "senzura" döyüşündən qalib çıxan, fırtınalar qopsa da millətinin, məmləkətinin üzünə şax baxan, tərcümeyi-halına "ötkəm redaktor", "təşkilatçı mühərrir", "peşəkar jurnalist", "kişi adam" kəlmələrini yazdıran, "Jurnalist dəqiq, qərəzsiz, vicdanlı olmalıdır. Ürəyinin səsinə qulaq asmalıdır. Peşəsini kiminsə pul kisəsindən asmamalıdır!" nidası ilə müasir jurnalistikanın belə örnəyinə, meyarına çevrilən professor Nəsir İmanquliyev idi! Allah ruhunu şad etsin!

*Şərəf CƏLİLLİ*